Tarix və onun problemləri, № 2 2014

**ZAHIDƏ RZAYEVA**
***Bakı Dövlət Universitetinin***
***Kitabxanaçılıq-informasiya fakültəsinin***
***Kitabxana resursları və axtarış sistemləri***
***kafedrasının müəllimi***

# MÜASIR DÖVRDƏ ELMI KITABXANALARDA INFORMASIYA AXTARIŞ SISTEMLƏRININ TƏRKIBININ TƏKMILLƏŞDIRILMƏSININ BƏZI NƏZƏRI MƏSƏLƏLƏRI

*Açar sözlər:* informasiya, kitabxana, Azərbaycan Respublikası, axtarış sistemləri
*Ключевое слова:* информация, библиотека, Азербайджанской Республики, поисковые системы
*Key words:* informaciy views, bibliotek, Azerbaijan Republic

Müasir dövrdə informasiya axtarış sistemlərinin strukturlarının dünya standartlarına uyğunlaşdırılması kimi məsələlər bu sahə ilə məşğul olan elmlərin tədqiqat obyekti hesab olunmaqdadır. Məsələyə bu konteksdən yanaşdıqda müəyyən olunur ki, son illər ərzində Azərbaycan Milli Kitabxanası bu sferada zəngin inkişaf yolu keçmiş, tarixi təcrübə qazanmış, respublikanın baş kitabxana-biblioqrafiya müəssisəsi kimi formalaşaraq xalqın mədəni və intellektual potensialının formalaşmasına və inkişafına öz töhfəsini vermişdir. Məhz elə bu baxımdan Milli Kitabxana fəaliyyəti ərzində əhaliyə kitabxana xidmətinin təşkilində öz aparıcı rolunu nümayiş etdirmiş, cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin bütün sahələrinə nüfuz edən mədəni-maarif və informasiya müəssisəsi kimi təqdim etmişdir.

Bütün bu sadaladığımız amillərə görə müstəqillik illərində və müasir informasiyalaşdırma cəmiyyətinin təşəkkül tapdığı bir şəraitdə Milli Kitabxananın informasiya axtarış sisteminin keçdiyi tarixi yolun və bu istiqamətdə qazandığı zəngin təsrübənin xronoloji ardıcıllıqla öyrənilməsi olduqca vacibdir. M.F.Axundov adına Milli Kitabxananın informasiya axtarış sisteminin intensiv artımı 1990-cı illərin əvvəllərinə qədər müşahidə edilir. Belə ki, 1993-cü ildə burada 22.095 nüsxə müxtəlif məlumat ədəbiyyatı mühafizə və istifadə edilirdi.

XX əsrin 90-cı illərindən başlayaraq məlum sosial-siyasi səbəblərlə əlaqədar soraq-biblioqrafiya fondunun tərkibində bir sıra keyfiyyət və kəmiyyət dəyişiklikləri baş vermişdir. SSRİ-də hakim olan kommunist ideologiyası ilə əlaqədar bir sıra nəşrlər, o cümlədən marksizm-leninizm klassiklərinin əsərlərinin nəşrləri, Sov. İKP və Azərbaycan KP qurultaylarının materialları, kommunist və sovet rəsmi orqanlarının öz aktuallığını itirmiş digər sənədləri fonddan təmizlənmişdir. 2003-cü ildə soraq-biblioqrafiya fondunun ümumi həcmi 40 min nüsxə ədəbiyyatdan ibarət idi. Son 10 il ərzində fondun inkişafı nəzərəçarpan dərəcədə olmamışdır. SSRİ geopolitik məkanının dağılması keçmiş imperiya məkanında vahid informasiya sisteminin dağılmasına, ölkələrarası sənəd-informasiya mübadiləsinin kəskin surətdə pozulmasına səbəb olmuş, nəticədə M.F.Axundov adına Milli Kitabxananın ənənəvi kitab təchizatı texnologiyasında köklü dəyişikliklər baş vermişdir. Bunlar şübhəsiz ki, özünü məlumat-biblioqrafiya fondunun tematik-tipoloji tərkibində də göstərmişdir.

Müasir dövrdə M.F.Axundov adına Milli Kitabxananın informasiya axtarış sistemlərinin tematik-tipoloji tərkibi kifayət qədər iyerarxiq struktura malik olmaqla yanaşı çoxspektli bir matris kimi müftəlif istiqamətli, məzmun və formalı elementləri özündə əks etdirməkdədir.

Sözügedən tematik tipoloji strukturun rəsmi sənədlər istiqaməti kifayət qədər ciddi xarakter və əhəmiyyətə malik olmaqla özündə bilavasitə aşağıdakı istiqamətləri birləşdirməkdədir:

M.F.Axundov adına Milli Kitabxananın informasiya axtarış sisteminin tərkib hissəsi olan soraq-biblioqrafiya fondunun son illər nisbətən intensiv inkişaf edən və ölkə sənədləri ilə daha çox zənginləşən bölməsi məhz "Rəsmi sənədlər" bölməsi olmuşdur. Uzun müddət əsas etibarilə marksizm-leninizm tərəfdarı liderlərin geniş istiqamətli, sovet rəsmi orqanlarının müvafiq materiallarından ibarət olan bu bölmə hal-hazırda Azərbaycan Respublikasının müstəqilliyi illərindəki, xüsusən 1993-cü ildən sonrakı təşəkkülünü əks etdirən rəsmi və konkret məlumat sənədləri ilə zənginləşdirilmişdir ki, buda kifayət qədər mühüm oxucu kütləsinə müvafiq istiqamətlərdə informasiya təminatının daha effektiv təmin edilməsinə xidmət etməkdədir.

Bu gün burada Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş ilk demokratik Konstitusiyasının nəşrləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Milli Məclisin Qanunlar Külliyyatının bütün cildləri, respublika qanunlarının müstəqil nəşrləri, Nazirlər Kabinetinin qərarları və digər rəsmi sənədlər cəmləşdirilmişdir.

Fondun "Rəsmi sənədlər" bölməsinin əsas prioritet istiqamətlərindən biri kimi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Müstəqillik illərində" əsərlərinin cildləri, onun çıxışları və məruzələrinin müxtəlif nəşrləri və Heydər Əliyev haqqında ədəbiyyat, o cümlədən məlumat nəşrləri, monoqrafiya və məcmuələr xüsusi əhəmiyyət kəsb etməkdədir. Nəzərə alsaq ki, Müstəqil Azərbaycan Respublikasının bütün fəaliyyət istiqamətləri ilə əlaqədar kifayət qədər çoxspektli elmi tədqiqatlar və araşdırmalar aparılmaqdadır, onda sözügedən struktur bölmənin məlumat bazasına yönəlik oxucu tələbləri daima mövcud olacaqdır ki, bu da sözügedən bölmənin işinin dahada təkmilləşdirilməsinə zəmin yaratmış olacaqdır.

Milli kitabxananin informasiya axtarış sisteminin digər aktual bölməsi sxemdən də göründüyü kimi məhz universal və sahəvi ensiklopedik nəşrlər bölməsidir. M.F.Axundov adına Milli Kitabxananın informasiya axtarış sisteminin məlumat fondunda 1969-1978-ci illərdə nəşr edilmiş "Böyük Sovet Ensiklopediyası"nın ("Болшая Советская Энциклопедия") 30 cilddən ibarət olan 3-cü nəşri və həmin ensiklopediyaya illik əlavələr ("Ежегодник БСЕ"), "Böyük Sovet Ensiklopediyası"nın 3-cü nəşrinə dair əlifba göstəricisi, "Kiçik Sovet Ensiklopediyası. 10 cilddə" ("Малая Советская Энциклопедия"), XIX-XX əsrlərdə nəşr edilmiş F.Brokhauzer və Y.Yefronun "Ensiklopedik lüğət", A.Y.Qranat qardaşlarının "Ensiklopedik lüğət"inin 7-ci nəşri, həmçinin rus dilində müxtəlif universal ensiklopedik lüğətlər toplanmışdır.

Fondun tərkibində eyni zamanda 70-80-ci illərdə nəşr edilmiş 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası", Azərbaycan və rus dillərində bir çox elm və mədəniyyət sahələrini əks etdirən ensiklopedik nəşrlər öz əksini tapır. Bunların içərisində Azərbaycan dilində 2 cildlik "Üzümçülük ensiklopediyası"nı, "Nizami ensiklopediyası"nı, "Ədəbiyyatşünaslıq ensiklopediya lüğəti"ni və başqalarını, rus dilində "Философский Энциклопедический Словарь", "Театровская Энциклопедия", "Химическая Энциклопедия", "Селскохозяйственная Энциклопедия" və başqalarını göstərmək olar.

Məlumat kitabları bölməsi və yaxud struktur istiqaməti də M.F.Axundov adına Milli Kitabxananın informasiya axtarış sisteminin tərkib hissəsi olan soraq-biblioqrafiya fondunda təmsil edilmiş və oxucular tərəfindən olduqca intensiv istifadə edilən, həmçinin müxtəlif biblioqrafik arayışların tərkibində kitabxana işçilərinə yaxından köməklik göstərən sənədlər sırasında məlumat kitabları xüsusi əhəmiyyət kəsb edir. Artıq məlum olduğu kimi, məlumat

kitabları müxtəlif elm, mədəniyyət, iqtisadiyyat sahələrinə dair özündə yığcam şəkildə ən yeni məlumatları və statistik göstəriciləri əks etdirən mövzu, həcm, quruluş və oxucu istiqaməti baxımından rəngarəng olan kitab və kitabçalardır.

M.F.Axundov adına Milli Kitabxananın soraq-biblioqrafiya fondunda belə nəşrlərin əksəriyyəti statistik məcmuələrdir. Burada 60-cı illərdən müasir dövrə qədər nəşr edilmiş "Azərbaycan iqtisadiyyatı 50 ildə", "Azərbaycan xalq təsərrüfatı 60 ildə" və s. bu tipli məlumat kitabları çoxluq təşkil edir. Fondda eyni zamanda Azərbaycan və rus dillərində elmi-kütləvi məlumat kitabları, o cümlədən "Fizika üzrə məlumat kitabı", ali riyaziyyat, kimya, kənd təsərrüfatı, üzümçülük, iqtisadiyyat, tibb və s. sahələrə dair müvafiq məlumat nəşrləri toplanmışdır. Burada kitabşünaslıq, kitabxana işi, nəşriyyat və kitab ticarəti üzrə də xeyli məlumat ədəbiyyatına da rast gəlmək olar.

Bunların içərisində Azərbaycan və rus dillərində 80-ci illərdə nəşr edilmiş "Kitabxana işçisinin məlumat kitabı", "Bakı kitabxanaları üzrə məlumat kitabı" da vardır. Qeyd etdiyimiz kimi, belə nəşrlər M.F.Axundov adına Milli Kitabxananın biblioqrafik fəaliyyətinin bütün istiqamətlərində, xüsusən oxuculara soraq-biblioqrafiya və məlumat-biblioqrafiya xidmətində olduqca geniş istifadə edilən vəsaitlərdir.

Müxtəlif linqivistik, terminoloji və sahəvi lüğətlə məlumat-biblioqrafiya fondunun ayrılmaz tərkib hissəsini təşkil edən lüğətlər bölməsidə kifayət qədər mühüm əhəmiyyət kəsb etməkdədir. M.F.Axundov adına Milli Kitabxananın informasiya axtarış sisteminin məlumat fondunda zəngin lüğətlər bölməsi mövcuddur. Bunlara misal olaraq 4 cildlik "Azərbaycan dilinin izahlı lüğəti"ni, 3 cildlik "Rusca-Azərbaycanca lüğət"i, 1 və 4 cildlik "Azərbaycanca-rusca lüğət"ləri, "Azərbaycan dilində istifadə edilən ərəb və fars sözləri lüğəti"nin ayrı-ayrı nəşrlərini, sinonimlər, frazeoloji, orfoqrafik lüğətləri, müxtəlif elm sahələrinə dair Azərbaycan, rus, ingilis terminləri lüğətlərini, rus dilində B.U.Dalin 4 cildlik izahlı lüğətini, bir sıra antonim, omonim, paronim, neologizm, arxaizm və sair lüğətləri göstərmək olar.

M.F.Axundov adına Milli Kitabxananın informasiya axtarışı sistemində mühüm yer tutan dövlət biblioqrafiyası nəşrlərinin cəmləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Dövlət biblioqrafiyası nəşrlərinin cəmiyyətin axtarış-kommunikativ sistemindəki əhəmiyyətindən bəhs edən professor Zöhrab Əliyev yazır: "Kommunikativ istiqamətli ümumi biblioqrafiya tələbatçılara mövcud olan sənəd kütləsi və axını haqqında informasiya vermək vəzifəsini yerinə yetirir. Bununla bərabər, həmin mənbələr çox geniş axtarış imkanlarına malikdirlər. Kommunikasiya istiqamətli ümumi biblioqrafiya çərçivəsində dövlət biblioqrafiyası olduqca mühüm yer tutur".

"Dövlət biblioqrafiyası nəşrləri" dedikdə SSRİ dövründə yaradılmış və fəaliyyətini indi də davam etdirən SSRİ (indiki Rusiya) Dövlət Kitab Palatasının və Azərbaycan Dövlət Kitab Palatasının nəşrləri, ilk növbədə mətbuat salnamələri (letopislər) nəzərdə tutulur. M.F.Axundov adına Milli Kitabxananın informasiya axtarış sistemində SSRİ-də, o cümlədən Azərbaycanda buraxılan çap əsərlərini dolğun şəkildə əhatə edən SSRİ və Azərbaycan Kitab Palatasının nəşr etdikləri salnamələr toplanmışdır. Belə ki, soraq-biblioqrafiya fondunda SSRİ ərazisində, o cümlədən Azərbaycanda nəşr edilmiş çap əsərlərini dəqiq və dolğun əks etdirən Ümumittifaq Kitab Palatasının salnamələri, 1960-1992-ci illər ərzindəki buraxılışları mühafizə edilir. Qeyd etdiyimiz kimi, bu salnamələr çox geniş xronoloji və məkan çərçivəsində biblioqrafik axtarış imkanlarına malikdir.

Nəşrinin ilk vaxtında çap əsərləri haqqında operativ informasiya nəşrləri funksiyasını oynayan bu vəsaitlər sonralar retrospektiv axtarışlar üçün əsas mənbələrə çevrildilər. Bu orqanlar vasitəsilə sovet hakimiyyəti illərində SSRİ məkanında buraxılmış bütün çap əsərləri,

o cümlədən Sovet Rusiyasında çap edilmiş nəşrlər, dilindən asılı olmayaraq bütün sənədlər haqqında tam və dolğun biblioqrafik məlumatlar almaq mümkündür.

Bütün bunlarla yanaşı informasiya axtarış sistemlərini tərkibinin daha da zənginləşdirilməsi və müvafiq olaraq müasir informasiya daşıyıcıları ilə təchizatı istiqamətində sistemli tədbirlər həyata keçirilməkdədir.

## ƏDƏBİYYAT

1. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.
2. ***"Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı // "Azərbaycan" qəz., 2007, 21 aprel.***
3. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya, 2008, №2, s.7-30.
4. Əliyev Z. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik. Bakı, 2007, 186 s.
5. Əliyev Z. Ümumi biblioqrafiyaşünaslıq: Dərslik. Bakı, 2001, 144 s.

**ЗАХИДА РЗАЕВА**
***Преподаватель кафедры библиотечных ресурсов и поисковых систем Библиотечно-информационного факультета Бакинского государственного Университета***

## НЕКОТОРЫЕ ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ СОВЕРШЕНСТВОВАНИЯ СОСТАВА ИНФОРМАЦИОННО-ПОИСКОВЫХ СИСТЕМ В НАУЧНЫХ БИБЛИОТЕКАХ В СОВРЕМЕННЫЙ ПЕРИОД

В статье рассматриваются теоретические вопросы совершенствования состава информационно-поисковых систем в научных библиотеках в современный период. Анализируется путь, пройденный современными информационно-поисковыми системами к современному периоду. Изучается практический опыт некоторых библиотек по работе в данном направлении.

Tarix və onun problemləri, № 2 2014

ZAHIDA RZAYEVA
*Lecturer of library resources and search engines,*
*Library and Information Department*
*of the Baku State University*

## SOME THEORETICAL ISSUES OF IMPROVEMENT OF INFORMATION RETRIEVAL SYSTEMS IN ACADEMIC LIBRARIES IN THE MODERN PERIOD

The article discusses the theoretical issues of improvement of information retrieval systems in academic libraries in the modern period. Analyzes the path traversed by modern information retrieval systems to the modern period. We study the practical experience of some libraries to work in this direction.

***Rəyçilər: dos. S.A.Xələfova, t.e.d. İ.Məmmədov***
***BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxana resursları və inforasiya axtarış sistemləri kafedrasının 23 aprel 2014-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №9)***